AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 68, №2, səh. 134-135 (2013)

İlham Ələkbərov - 65



Biologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü İlham Xəyyam oğlu Ələkbərov zoologiya elmində dərin araşdırmalar aparan və sanballı nəticələr əldə edən nüfuzlu alimlərdən biridir.

İlham Ələkbərov 1948-ci il noyabr ayının 20-də Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. Atası b.e.n. Xəyyam Ələkbərov uzun illər AMEA Zoologiya İnstitutunun Teriologiya lobaratoriyasının müdiri, anası b.e.n. Xalidə Quliyeva AMEA Botanika İnstitutunda böyük elmi işçi vəzifələrində çalışmışlar. İlham Ələkbərovun istər cəmiyyət üçün faydalı insan kimi yetişməsində, istərsə də yüksək elmi biliklərə yiyələnməsində valideynlərinin böyük rolu olmuşdur.

1966-cı ildə Bakı şəhəri 134 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinə daxil olmuşdur. Elə tələbəlik illərində gələcək ixtisaslaşma istiqamətini özü üçün tam yəqinləşdirərək sərbəstyaşayan təkhüceyrəli heyvanların öyrənilməsini qarşıya məqsəd qoymuş və bu sahədə tədqiqatlara başlamışdır. 1971-ci ildə universiteti bitirdikdən sonra AMEA Zoologiya İnstitutunun Hidrobiologiya laboratoriyasında əmək fəaliyyətinə başlamış və paralel olaraq qiyabi aspiranturaya daxil olmuşdur.

İşlədiyi və təhsil aldığı illərdə tədqiqatlar üçün zəruzi olan çətin sitoloji metodları mənimsəmişdir. Onun yüksək ixtisaslı mütəxəssis kimi formalaşmasında SSRİ EA Sitologiya və Zoologiya institutlarının aparıcı mütəxəssisləri - protistoloqlar Y.İ.Polyanski, İ.B.Raykov, A.V.Yankovski və başqalarının böyük dəstətəkləri olmuşdur. İlham Ələkbərovun bir alim kimi yetişməsində və idarəçilik keyfiyyətləri əxz etməsində akademik Musa Musayevin zəhməti misilsizdir.

Sərbəstyaşayan ibtidailər, ilk növbədə, infuzor və çanaqlı amöblərin dəniz və şirin suların bioloji təmizlənməsində rollarının tədqiqi ilə bağlı uzun illər aparılan elmi tədqiqatları 1977-ci ildə uğurla yekunlaşdıran İlham Ələkbərov «Mingəçevir, Varvara və Ceyranbatan su anbarlarının plankton infuzorları» mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Bundan sonra o Azərbaycanın şirin sularının infuzor faunasını və ekologiyasını öyrənmək istiqamətində elmi işlərini intensiv surətdə davam etdirmişdir. Keçən əsrin 90-cı illərində Qırğızıstan EA Biologiya İnstitutunun kompleks ekspedisiyalarında iştrak etmiş və Tacikistan, Qırğızıstan və Özbəkistanın dağ regionlarının suda və torpaqda yaşayan infuzorları üzrə nadir material toplamışdır.

İlham Ələkbərovun çoxillik tədqiqatlarının nəticələri 1987-ci ildə Leninqrad Universitetində müvəffəqiyyətlə müdafiə etdiyi «Azərbaycan şirin su infuzorları» mövzusundakı doktorluq dissertasiyasında əksini tapmışdır. Bu tədqiqatlara qədər ədəbiyyatda yalnız 85 şirin su infuzoru məlum idisə, hazırda onların sayı Azərbaycanın bütün su və torpaqlarında 500 növə qədərdir. 4 fəsilə, 12 cins və 100 artıq növ elm üçün ilk dəfə olaraq İlham Ələkbərov tərəfindən təsvir edilmiş və sonralar dünyanın digər regionlarının aparıcı mütəxəssisləri tərəfindən qeyd edilmişdir. Sərbəstyaşayan infuzorların faunası, təsnifatı və morfologiyasının öyrənilməsindəki böyük uğurlarından başqa, İlham Ələkbərov ibtidailərin bu qrupunun ekologiyasının təyin edilməsi sahəsində də mühüm nəticələr əldə etmişdir.

İlham Ələkbərov ilk dəfə olaraq Azərbaycan şəraitinə adaptasiya olunmuş 100-dən çox infuzor növünün – müxtəlif səviyyəli üzvi çirklənmənin bioindikatorlarının siyahısını hazırlamış, onların rast gəlmə tezliyi əsasında Azərbaycanın 20-dən çox mühüm su anbarının üzvi çirklənməsinin səbəblərinin xarakteristikası vermişdir. Məhz onun tərəfindən ilk dəfə olaraq bəzi infuzor növlərinin toksikoloji tədqiqatlarda test-obyektlər kimi istifadə olunması metodikasını da işlənilib hazırlamışdır. Hazırda bu üsulun istifadə olunması tədqiqatçılara qısa müddət ərzində neftdən və bir çox ağır metallardan tutmuş müasir insektisidlərə qədər bir sıra maddələrin toksiklik dərəcəsini müəyyən etməyə imkan verir.

Hələ ötən əsrin 80-ci illərində İlham Ələkbərov tərəfindən hazırlanmış infuzorların sıx kulturasının zavod şəraitində çoxaldılan vətəgə əhəmiyyətli balıqların sürfələri üçün qida kimi istifadə edilməsi metodikası balıq zavodlarında

sürfələrin yaşama qabiliyyətinin artmasına səbəb olmuşdur. Bu üsul Leninqrad (indiki Sankt-Peterburq) vilayətinin Kirisi şəhərində balıq təsərrüfatlarında müvəffəqiyyətlə tətbiq edilmişdir.

40 ildən artıq bir dövrü əhatə edən, Azərbaycanın, həmçinin Ukraynan, Rusiya, Orta Asiya ölkələri, Çukot və Berinq dənizi, Atlantik və Sakit okeanların sərbəstyaşayan infuzorlarının faunistik tədqiqatlarının nəticələri 2005-ci ildə rus dilində çap olunmuş «Атлас свободноживущих инфузорий» monoqrafiyasında öz əksini tapmış və dünyanın aparıcı mütəxəssisləri tərəfindən yüksək rəylər almışdır. Kitabda elm üçün 90 yeni növ də daxil olmaqla, 250-dən çox infuzor növünün mikroşəkillərlə birlikdə təsviri verilmişdir.

İ.X.Ələkbərovun 2012-ci ildə rus dilində çapdan çıxmış (50 səhifə, ingilis dilində olan xülasə də daxil olmaqla) «Свободноживущие инфузории Азербайджана» adlı ikinçi monoqrafiyası müəllifin respublikamızın dəniz və şirin sularının, həmcinin torpaq infuzorlarının ekologiyası, zoocoğrafiyası və praktiki əhəmiyyətinin öyrənilməsi üzrə uzun illərin tədqiqatlaarının nəticələrini özündə əks etdirir. Bu monoqrafiya haqda Kiyevdə rus və ingilis dillərində nəşr olunan "Вестник зоологии" adlı jurnalında müsbət resenziya çap edilmiş, Moskva Dövlət Universitetinin hidrobiologiya kafedrası və Sankt-Peterburq Dövlət Universitetinin onurğasızlar zoologiyası kafedrası kitabın bəzi bölmələrini özlərinin tədris kurslarına daxil etmişdir.

İlham Ələkbərovun rəhbərliyi altında 6 namizədlik dissertasiyası müvəffəqiyyətlə müdafiə olunmuşdur.

İlham Ələkbərov Bulletin of the British Museum Natural History (Böyük Britaniya) və Turkish Journal of Zoology (Türkiyə) jurnallarının protistologiya sahəsi üzrə rəyçisidir. O, müxtəlif illərdə Ekologiya Komitəsinin eksperti olmuş, BP-Azərbaycan neft şirkətində biomonitorinq və elmi tədqiqatlar qrupunda AMEA-nın təmsilçisi kimi çalışmışdır.

Elm sahəsindəki xidmətləri yüksək dəyərləndirən alim 2007-ci ildə AMEA-nın müxbir üzvi seçilmişdir.

Elmi fəaliyyəti ilə yanaşı, professor İlham Ələkbərov həm də yaxşı təşkilatçıdır. AMEA Zoologiya İnstitutunun direktoru, eyni zamanda dissertasiya müdafiəsi üzrə İxtisaslaşmış Şurasının sədri kimi uğurla fəaliyyət göstərir.

Elmi ictimaiyyətimiz adından biz də İlham müəllimi doğum günü münasibəti ilə təbrik edir, Azərbaycan elminin inkişafı naminə ona fəaliyyətində uğurlar arzulayırıq. İnanırıq ki, o, bundan sonra da daima öz işlərində yüksək fəallıq və vətənpərvərlik nümayiş etdirəcəkdir.

Biologiya elmləri doktoru, professor
Şaiq İbrahimov